# 15 Sentyabr Bilik Günüdür!



*(Daycest)*

**Bakı - 2023**

Sentyabrın 15-i ölkəmizdə "Bilik günü" kimi qeyd olunur. 2004-cü il avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsi və ümumilikdə təhsil sisteminin təkmilləşdirilməsi məqsədilə fərman imzalayıb. "Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında" fərmana əsasən, ölkənin bütün təhsil müəssisələrində dərslər sentyabrın 15-də başlanır və 15 sentyabr "Bilik günü" elan edilir. Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Elmsiz, təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər. Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. İnsanları cəhalətdən xilas edərək uğura aparan yol təhsildir. Uzun bir macəra kimi görünsə də, parlaq gələcəyə çatmaq üçün buna ehtiyacımız var. İnsan həyatını dəyişən dəyərlərə malikdir. Məktəb həyatı ilə başlayan təhsil həyata atılana qədər davam edir. Hər bir cəmiyyətdə təhsilə önəm verilərək, insana yüksək qiymət verilir. Parlaq gələcəyi və yaxşı təhsili olan cəmiyyətlər həmişə hörmətə layiqdirlər.

Tarix boyu xalqımız elmi, biliyi yüksək qiymətləndirmiş, öz övladlarının savadlanması üçün əllərindən gələn səyi əsirgəməmişdir. Azərbaycan elminin tarixində Nəsirəddin Tusi, Bəhmənyar, Abbasqulu Ağa Bakıxanov, Mirzə Kazımbəy, Yusif Məmmədəliyev kimi yüzlərlə böyük alim və filosoflar olmuşdur ki, onlar dünya elminin inkişafına öz töhfələrini vermişlər.

Ulu Öndər Heydər Əliyev Azərbaycan təhsilinə çox böyük töhfələr vermişdir. Onun təhsil siyasəti dərin milli mənafelər üzərindən qurularaq ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu təhsil siyasəti Heydər Əliyevin təhsil strategiyasına əsaslanmış və bu sahədə böyük nailiyyətlər qazanılmışdır. Bu gün ölkəmiz təhsilə birinci dərəcədə önəm verir və bu sahədə çoxşaxəli addımlar atır, təhsillə bağlı yeni layihələr, yeni fərmanlar və qanunda yeni dəyişikliklər edərək hal-hazırki təhsil sistemimizin olduğundan daha da yaxşı yerlərə gəlməsi və inkişaf etməsi üçün yüksək səy göstərir. Təhsillə bağlı dünyanın qabaqcıl, inkişaf etmiş ölkələrinin təcrübəsini nəzərə alaraq ölkəmizdə də bir sıra qabaqcıl innovasiyalar tətbiq edilir.

15 Sentyabr Bilik Günü münasibətilə F. Köçərli adına Respublika Uşaq Kitabxanası mövzuyla bağlı fondunda mövcud olan dövrü mətbuat materiallarının tammətnli biblioqrafik siyahısını hazırlayaraq oxuculara təqdim edir.

## Heydər Əliyev və təhsil: fotoşəkillər














## “Bilik” haqqında dəyərli fikirlər

Təhsil millətin gələcəyidir.

Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.

Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.

Bizdə təhsil çox inkişaf edibdir. Azərbaycanda, demək olar ki, təhsil almayan adam yoxdur.

Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır.

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.

Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.

Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. İndiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcəkdir.

Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq.

Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun.

Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir.

Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.

***Heydər Əliyev***

Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir.

Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir.

Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı, büdcədə təhsil xərcləri birinci yerdə olacaqdı.

Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar.

Təhsil Azərbaycan üçün ən prioritet məsələlərdən biridir.

***İlham Əliyev***

Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın.

***Məhəmməd peyğəmbər (s.ə.s.)***

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

Hər uca rütbədən biliniz, fəqət,
Alimin rütbəsi ucadır əlbət.

Bilik öyrənməyi ar bilən hər kəs
Dünyada mərifət qazana bilməz.

Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən
Kamil bir palançı olsa da insan
Yaxşıdır yarımçıq papaqçılıqdan.

***Nizami Gəncəvi***

Bütün dünya bədəndir, bilik candır.

Sual da, cavab da bilikdən doğulur.

***Cəlaləddin Rumi***

Elmi bələkdən qəbrədək öyrənmək lazımdır.

***Sədi Şirazi***

Elm bir nur, cəhl zülmətdir.

***Mahmud Şəbüstəri***

Ağıl-kamal verdi sənə yaradan,
Çalışıb hər sirri öyrən hər zaman.

Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir.

***Əvhədi Marağayi***

Elm bəşəriyyəti asudəçilik və səadətə doğru aparır.

Elmin faydası o zaman olur ki, Prus xalqı və Yengüdünya xalqı kimi bütün camaat qadınlı-kişili elm oxumuş olsun.., çobanlarımız...və qadınlarımız... oxumağı və yazmağı bacarsınlar.

Mənim məqsədim... Cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün... ədalətə rəvac verməkdir.

Oxumuşların sayı çox olan ölkələrdə təfəkkür sahiblərinin sayı da çox olur. Təfəkkür sahiblərinin çox olduğu ölkədə isə həyatın bütün sahələrində xalq gündən-günə tərəqqi edə bilər.

***Mirzə Fətəli Axundov***

Təhsil xəzinədir, əmək onun açarı.

***Seyid Əzim Şirvani***

Elm hər dildə birdir.

***Hüseyn Cavid***

Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.

***Abdulla Şaiq***

Təhsilə tələbat hər bir insanda vardır. Nəfəs almaq üçün havanı sevən və axtaran xalq təhsili də sevir və axtarır.

***Lev Tolstoy***

## “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108, № 6 (I kitab), maddə 547, № 11, maddə 1209; 2022, № 6, maddə 589; 2023, № 2, maddələr 207, 211) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.6-cı və 33.3.9-cu maddələrə birinci halda “dövlət” sözündən sonra “məktəbəqədər və” sözləri əlavə edilsin;

1.2. 1.0.6-1-ci maddəyə birinci halda “dövlət” sözündən sonra “məktəbəqədər və” sözləri əlavə edilsin və həmin maddədə “və idarəetmə fəaliyyəti ilə” sözləri “fəaliyyətlə” sözü ilə əvəz edilsin;

1.3. 1.0.54-cü və 22.5-1-ci maddələr ləğv edilsin;

1.4. 14.8-1-ci maddənin birinci cümləsindən “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində,” sözləri çıxarılsın;

1.5. 22.5-ci maddədən “və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda” sözləri çıxarılsın;

1.6. 29.0-cı maddə üzrə:

1.6.1. 29.0.2-ci maddədə “inkişaf konsepsiyasını və əsas prioritetlərini” sözləri “inkişafına dair strategiyaları, konsepsiyaları və prioritet inkişaf istiqamətlərini” sözləri ilə əvəz edilsin;

1.6.2. aşağıdakı məzmunda 29.0.10-3-cü, 29.0.37-1–29.0.37-3-cü və 29.0.42-1-ci maddələr əlavə edilsin:

“29.0.10-3. peşə təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını müəyyən etmək;”;

“29.0.37-1. yeni təhsil proqramlarının (ixtisasların) açılması qaydalarını müəyyən etmək;

29.0.37-2. təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna dair tələbləri müəyyən etmək;

29.0.37-3. ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə qaydasını təsdiq etmək;”;

“29.0.42-1. ali təhsil müəssisələrində elmi-tədqiqat və elmi-metodik işlərin təşkili qaydalarını və professor-müəllim heyətinin tədris işi vaxt normasını müəyyən etmək;”;

1.6.3. 29.0.26-cı maddəyə “elmi-metodik” sözlərindən sonra “, tədris-metodiki” sözləri əlavə edilsin;

1.6.4. 29.0.29-cu və 29.0.43-cü maddələrə birinci halda “dövlət” sözündən sonra “məktəbəqədər və” sözləri əlavə edilsin;

1.6.5. 29.0.31-ci maddəyə “əlaqələndirmək” sözündən sonra “, elmi-tədqiqat işlərini dəstəkləmək və mükafatlandırmaq” sözləri əlavə edilsin;

1.6.6. 29.0.37-ci maddəyə “planlarını” sözündən sonra “(ali və orta ixtisas təhsili müəssisələri üzrə tədris planları istisna olmaqla)” sözləri əlavə edilsin;

1.7. 36-2-ci maddə üzrə:

1.7.1. adına, 36-2.1-ci və 36-2.2-ci maddələrə “Dövlət” sözündən sonra “məktəbəqədər və” sözləri əlavə edilsin;

1.7.2. 36-2.3.3-cü maddədə “5 (beş)” sözləri “3 (üç)” sözləri ilə əvəz edilsin;

1.7.3. aşağıdakı məzmunda 36-2.3-1-ci maddə əlavə edilsin:

“36-2.3-1. 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür.”;

1.7.4. 36-2.4-cü maddəyə birinci halda “dövlət” sözündən sonra “məktəbəqədər və” sözləri əlavə edilsin.

Maddə 2. Bu Qanunun 1.3-cü və 1.4-cü maddələri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 9 iyun 2023-cü il***

## “Bilik günü” haqqında dövrü mətbuatda

**Ağazadə Ə**. Azərbaycan məktəbi // Azərbaycan müəllimi. – 2000. – 31 avqust.

**Ağazadə Ə.** Əlvida, bağça! // Göyərçin. – 2001. - № 5-6. – S. 16.

**Ağazadə Ə.** Sevimli bayramımız // Savalan. – 18 may. – 2004.

**Aslanov A**. İlk müəllimimiz // Savalan. – 2007. – 21-24 sentyabr. – S. 3.

**Bayramlı N**. Bakı Slavyan Universitetində 15 sentyabr - Bilik günü münasibətilə tədbir keçirilib // Yeni Azərbaycan. - 2016. - 16 sentyabr. - № 168. - S. 5.

**Bayramov C**. Uğurlu təhsil islahatlarının banisi : Azərbaycan tarixinin Heydər Əliyev dövrü: qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf (1969-2019) // Azərbaycan : qəzet. - 2019. - 12 iyul. - **№ 149**. - S. 1, 4.

**Bayramova Z**. Məktəb həyatına ilk çağırış - ilk zəng // Səs. - 2022. - 15 sentyabr. - № 167. - S. 7.

**Cəbrayılov İ**. Pedaqogika elminə töhfə - "Təhsil və cəmiyyət" // 525-ci qəzet. - 2020. - 24 sentyabr. - **№ 117**. - S. 15.

**Daşsalahlı R**. İnklüziv təhsil bərabərhüquqlu və inklüziv cəmiyyətlərin təməlidir // Azərbaycan Müəllimi. - 2020. - 22 may. - **№ 14**. - S. 1, 8.

**Daşsalahlı R**. Məsafə onlara mane olmur : Müəllimlər şagirdlərlə birgə istənilən formatda dərsi qura və yüksək nəticə əldə edə bilərlər // Azərbaycan Müəllimi. - 2020. - 16 oktyabr. - **№ 34**. - S. 12.

**Əbilov Ə**. Bilik günü: şeir // Göyərçin. – 2001. - №4. – S. 19.

**Əhmədov A.** Azərbaycanın ümumi təhsili Heydər Əliyev ideallarının işığında // Azərbaycan Müəllimi. - 2023. - 17 fevral. - № 7. - S. 7.

**Əliyeva K**. Əlifba bayramı // Şəkər villası. – 2004. – 27 aprel – 3 may.

**Əliyeva Ş.** Elm və təhsilin inkişafı naminə // Azərbaycan müəllimi. – 2023. – 6 may.

**Əlizadə H**. Dərsin müasirliyinin psixopedaqoji sirləri // Azərbaycan Müəllimi. - 2020. - 28 fevral. - **№ 8**. - S. 1, 5.

**Əsgərov Ş**. Təhsilin konseptual problemləri // 525-ci qəzet. - 2020. - 1 fevral. - № 12. - S. 8-9, 11.

**Hacıyev A**. Elm və təhsil: gələcəyə aparan yol : İnkişafın yeni hədəfləri // Azərbaycan : qəzet. - 2019. - 30 may. - **№ 117**. - S. 8.

Heydər Əliyev fondunun təşəbbüsü ilə "Bilik günü" ndə bir sıra təlim-tərbiyə ocağı istifadəyə verilmişdir // Xalq qəzeti. - 2008. - 16 sentyabr. - S. 3.

**Hüseynov R**. Elm və təhsilimizə açılan yeni üfüqlər // 525-ci qəzet. - 2022. - 6 avqust. - № 138. - S. 6-7.

**Hüseynova M**. Prezident İlham Əliyevin uğurlu təhsil siyasəti // Azərbaycan Müəllimi. - 2021. - 13 avqust. - № 30. - S. 4.

**Qarayeva S**. Təhsildə inkişaf və innovasiyalar: kim nə təklif edir? // 525-ci qəzet. - 2021. - 9 oktyabr. - № 184. - S. 21.

**Qarayeva S.** Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər // 525-ci qəzet. - 2020. - 8 yanvar. - **№ 1**. - S. 7.

**Qəmbərov M**. Məktəb bilik və tərbiyə ocağıdır // Xalq qəzeti. - 2010. - 19 sentyabr. - № 204. - S. 5.

**Quliyeva T.** Təhsilə gedən yol mütaliədən keçir // Azərbaycan Müəllimi. - 2021. - 21 may. - № 18. - S. 11.

**Qurbanqızı Z.** 15 Sentyabr Bilik Günüdür // Respublika. – 2021. – 13 sentyabr.

**Mehrəliyeva Ş.** Məktəb şərqisi // Azərbaycan müəllimi. – 1998. – 15 yanvar. – S. 4.

**Məhərrəmova S**. Məktəbdə ilk addımlar // Azərbaycan müəllimi. – 2012. – 2 noyabr. - № 43. – S. 7.

**Mərdanov M.** Müəllim nüfuzu və ona təsir göstərən amillər // 525-ci qəzet. - 2022. - 6 oktyabr. - № 181. - S. 10.

**Mərdanov M**. Riyaziyyat bütün elmlərin açarıdır // Azərbaycan : qəzet. - 2020. - 13 mart. - **№ 56**. - S. 5.

**Mərdanov M**. Təhsilin inkişafında əsas amil - müəllimin nüfuzu // 525-ci qəzet. - 2022. - 12 oktyabr. - № 185. - S. 10-11. ; 13 oktyabr. - № 186. - S. 10-11.

**Mir Sabir**. Bilik bayramı // Savalan. – 2008. – 19 sentyabr. – S. 1.

**Mir Sabir**. Birinci dərsdə // Savalan. – 2004. – 14-16 sentyabr.

**Mustafa S.** Salam, doğma məktəb! // Azərbaycan müəllimi. – 1997. – 02 sentyabr.

**Mustafayev O**. Davosdan dünya təhsili necə görünür? // Azərbaycan Müəllimi. - 2020. - 7 fevral. - **№ 5**. - S. 1, 6.

**Mustafayev O.** Elm və təhsilin inteqrasiyasında yeni mərhələ : Bakıda "5-ci Şərq Tərəfdaşlığı E-infrastrukturlar Konfransı" keçirilib // Azərbaycan Müəllimi. - 2022. - 30 sentyabr. - № 38. - S. 5.

**Mustafayev O**. Gələcəyi düşünərkən... : TEAM təlim uşaqlarımıza nə verir? // Azərbaycan Müəllimi. - 2020. - 16 oktyabr. - **№ 34**. - S. 14.

**Mustafayev O**. Təhsilin gələcəyini nələr müəyyən edəcək? // Azərbaycan Müəllimi. - 2020. - 15 may. - **№ 13**. - S. 1, 4.

**Mustafayev O**. Yeniləşən ali təhsil : Əlçatanlıq və əhatəlilik təhsil sistemini hədəflərə çatdıracaq // Azərbaycan Müəllimi. - 2019. - 20 dekabr. - **№ 48**. - S. 1, 4.

**Müşfiq Ş**. Boloniya prosesi - təhsilin dostu, yoxsa düşməni? // 525-ci qəzet. - 2020. - 22 may. - **№ 46**. - S. 8.

**Nəcəfova Z.** Məktəbimiz // Savalan. – 2007. – 18-21 may.

**Nərimanoğlu M**. Təhsil xalqın və dövlətin uğurlu gələcəyinə aparan işıqlı yoldur : Heydər Əliyev Fondunun bu sahə ilə bağlı gerçəkləşdirdiyi layihələr böyük razılıqla qarşılanır // Azərbaycan : qəzet. - 2019. - 11 sentyabr. - **№ 199**. - S. 1, 3.

**Ömərov V.** İnsanın təhsil haqqı // Səs. - 2020. - 9 may. - № 79. - S. 16.

**Rasimqızı R**. Gələcəyimizin təminatçıları: Müasir, bilikli, istedadlı gənclər // İki sahil. - 2020. - 15 fevral. - **№ 31**. - S. 8.

**Rasimqızı R**. Təhsilimiz müasirləşir və təkmilləşir // İki sahil. - 2022. - 25 avqust. - № 152. - S. 6.

**Rəcəbov O**. Elm, təhsil, mədəniyyətin inkişafı diqqət və qayğı tələb edir // Respublika. - 2020. - 9 fevral. - **№ 28**. - S. 3.

**Rəhimova S.** Ən birinci müəllimdir "Əlifba" // Savalan. – 2008. – 27-31 may. – S. 5-6.

**Sabir M.Ə.** Məktəbə çağırış // Savalan. – 21-24 sentyabr. - № 43. – S. 1.

**Salmanov R**. Hər şey "Əlifba"dan başlayır // Xalq qəzeti. – 2008. – 26 aprel.

**Sevinc**. Azərbaycan təhsilində yenilik // Həftə içi. – 2018. – 17-19 mart. - № 51. – S. 6.

**Sevinc**. Bu gün Azərbaycanda "Bilik günü"dür // Həftə içi. – 2017. – 15 sentyabr. – S. 6.

**Sultanova A**. Milli təhsil sisteminin qurucusu // Palitra. - 2020. - 1 may. - № 32. - S. 10.

**Süleymanova N**. Dünya ölkələrində təhsillə bağlı maraqlı faktlar // İki sahil. - 2020. - 15 fevral. - **№ 31**. - S. 16.

**Yəhyayev E.** Şagirdlərin həyəcanı, müəllimlərin gözləntisi... : 15 Sentyabr Bilik Günüdür // Azərbaycan : qəzet. - 2022. - 15 sentyabr. - № 199. - S. 16.

**Yusifoğlu R**. Birinci zəng: şeir // Göyərçin. – 1999. - № 89.

**Yusifoğlu R.** Mən məktəbə gedirəm // Savalan. – 2002. – 23-29 yanvar.

**Yusifoğlu R**. Müəllim qələmi // Azərbaycan müəllimi. – 2001. – 4-10 oktyabr.

**Yusifoğlu R.** Müəllim qələmi // Savalan. – 2002. – 2-8 oktyabr.

**Tərtib etdi:** **Əkbərova Aysel**